Layihə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin gəlirləri 38 316 000,0 min manat, xərcləri 41 367 600,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 37 520 952,0 min manat, yerli gəlirləri 795 048,0 min manat, mərkəzləşdirilmiş xərcləri 40 567 265,0 min manat, yerli xərcləri 800 335,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 989 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6 344 000 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 46 700 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 392 600 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 8 326 200 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 568 000 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 405 000 000,0 |
| 2.7. | Aksizlər | 1 840 700 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 185 000 000,0 |
| 2.8. | Yol vergisi | 142 800 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 37 000 000,0 |
| 2.9. | Mədən vergisi | 160 000 000,0 |
| 2.10. | Gömrük rüsumları | 1 810 000 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 166 000 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2 000 000,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 612 230 000,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 14 481 000 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 34 000 000,0 |

| | | |
|---|---|---|
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 12 000 000,0 |
| 2.17. | Dövlət rüsumu | 390 000 000,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 75 000 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 840 000 000,0 |
| 2.20. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları üzrə daxilolmalar | 61 220 000,0 |
| 2.21. | Sair daxilolmalar | 185 550 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 340 000 000,0 |
| 3.1.1. | yol vergisi | 142 800 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 7 200 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 54 200 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 96 400 000,0 |
| 3.1.5. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 39 100 000,0 |
| 3.1.6. | iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulmasına görə tətbiq edilmiş inzibati cərimələr | 300 000,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən (SVOP əməliyyatları istisna olmaqla) dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2025-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar,

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarının digər gəlirləri.

**Maddə 6.** Bu Qanunun 9-cu maddəsi ilə 2025-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| **Sıra №-si** | **Xərclərin istiqamətləri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 5 247 296 402,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 735 544 628,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 493 100 000,0 |
| 7.1.3. | xarici yardımlar | 10 000 000,0 |
| 7.1.4. | elm | 244 375 253,0 |
| 7.1.5. | seçki və statistika tədbirləri | 35 057 321,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 329 579 000,0 |
| 7.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 320 529 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 7 500 000,0 |
| 7.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 550 000,0 |
| 7.1.7. | dövlət borcu | 2 399 640 200,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 8 396 297 596,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 2 665 277 196,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 467 917 873,0 |
| 7.2.3. | sərhəd xidməti | 540 314 143,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 5 359 711,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 4 717 428 673,0 |
| 7.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 4 580 000 000,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 3 205 196 733,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 151 004 428,0 |
| 7.3.2. | hüquq mühafizə | 2 314 306 078,0 |
| 7.3.3. | prokurorluq | 126 695 172,0 |
| 7.3.4. | məhkəmə qərarlarının icrası | 10 000 000,0 |
| 7.3.5. | hüquqi yardım | 6 061 927,0 |
| 7.3.6. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 597 129 128,0 |
| 7.4. | Təhsil | 4 946 073 190,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 467 441 987,0 |
| 7.4.2. | ümumi təhsil | 2 347 554 880,0 |
| 7.4.3. | peşə təhsili | 82 228 666,0 |

| | | |
|---|---|---|
| 7.4.4. | orta ixtisas təhsili | 104 908 142,0 |
| 7.4.5. | ali təhsil | 180 731 136,0 |
| 7.4.6. | əlavə təhsil | 20 840 188,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 7 493 152,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 734 875 039,0 |
| 7.5. | Səhiyyə | 1 999 438 359,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 18 082 341,0 |
| 7.5.2. | xəstəxanalar | 255 163 643,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 8 021 082,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 718 171 293,0 |
| 7.5.4.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 410 405 000,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 4 811 769 907,0 |
| 7.6.1. | sosial müdafiə | 515 482 404,0 |
| 7.6.2. | sosial təminat | 68 672 446,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 50 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 4 227 565 057,0 |
| 7.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 600 000 000,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 635 294 427,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 234 559 269,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 67 746 571,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 80 032 720,0 |
| 7.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 073 699,0 |
| 7.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 230 882 168,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 364 203 585,0 |
| 7.8.1. | mənzil təsərrüfatı | 69 576 878,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 160 356 063,0 |
| 7.8.3. | su təsərrüfatı | 11 407 499,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 122 863 145,0 |
| 7.9. | Kənd təsərrüfatı | 1 171 863 792,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 574 499 540,0 |
| 7.9.2. | baytarlıq | 48 485 983,0 |
| 7.9.3. | meliorasiya | 510 741 123,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 38 137 146,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 417 691 558,0 |
| 7.10.1. | Ətraf mühitin və təbiətin mühafizəsi | 1 045 766,0 |
| 7.10.2. | bioloji zənginliyin qorunması | 9 274 287,0 |
| 7.10.3. | torpaq və yerquruluşu | 18 600 000,0 |
| 7.10.4. | hidrometeorologiya tədbirləri | 10 591 785,0 |
| 7.10.5. | meşə təsərrüfatı | 20 116 471,0 |
| 7.10.6. | balıqçılıq və ovçuluq | 1 384 537,0 |

| | | |
|---|---|---|
| 7.10.7. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 326 883 862,0 |
| 7.10.8. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 29 794 850,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 8 444 140 627,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 515 551 744,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 53 594 784,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 6 687 457 000,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 685 400 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 4 000 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 8 200 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 42 634,0 |
| 7.11.6. | iqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 1 179 294 465,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 728 333 824,0 |
| 7.12.1. | ehtiyat fondları | 448 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300 000 000,0 |
| 7.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 148 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 420 520 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 420 520 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 855 813 824,0 |
| 7.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 35 000 000,0 |
| 7.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 15 045 899,0 |
| 7.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 785 767 925,0 |

**Maddə 8.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 15 500 000 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 152 100 000,0 manat, yerli xərclər 800 335 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 14 552 852 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 5 287 000,0 manat məbləğində təsdiq edilsin.

(manatla)

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdi-rilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləş-dirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | | | |
| | **Şəhərlər** | | | | | |
| 1. | Bakı | 14 103 000 000 | 129 467 000 | 358 525 000 | 13 615 008 000 | 0 |
| 2. | Gəncə | 108 103 000 | 1 808 000 | 39 695 000 | 66 600 000 | 0 |
| 3. | Lənkəran | 38 374 000 | 2 560 000 | 9 285 000 | 26 529 000 | 0 |
| 4. | Mingəçevir | 36 540 000 | 65 000 | 15 465 000 | 21 010 000 | 0 |
| 5. | Naftalan | 10 077 000 | 2 000 | 3 153 000 | 6 922 000 | 0 |
| 6. | Sumqayıt | 213 052 000 | 2 455 000 | 32 802 000 | 177 795 000 | 0 |
| 7. | Şəki | 36 992 000 | 1 893 000 | 7 593 000 | 27 506 000 | 0 |
| 8. | Şirvan | 34 040 000 | 1 790 000 | 5 189 000 | 27 061 000 | 0 |
| 9. | Yevlax | 26 014 000 | 2 753 000 | 7 462 000 | 15 799 000 | 0 |
| 10. | Xankəndi | 500 000 | 0 | 500 000 | 0 | 0 |
| | **Rayonlar** | | | | | |
| 11. | Abşeron | 91 527 000 | 166 000 | 11 235 000 | 80 126 000 | 0 |
| 12. | Ağcabədi | 25 021 000 | 1 732 000 | 6 454 000 | 16 835 000 | 0 |
| 13. | Ağdam | 12 004 000 | 35 000 | 7 790 000 | 4 179 000 | 0 |
| 14. | Ağdaş | 13 311 000 | 12 000 | 6 409 000 | 6 890 000 | 0 |
| 15. | Ağdərə | 300 000 | 0 | 300 000 | 0 | 0 |
| 16. | Ağstafa | 12 315 000 | 41 000 | 5 322 000 | 6 952 000 | 0 |
| 17. | Ağsu | 16 486 000 | 1 049 000 | 5 499 000 | 9 938 000 | 0 |
| 18. | Astara | 16 804 000 | 10 000 | 4 555 000 | 12 239 000 | 0 |
| 19. | Balakən | 9 775 000 | 23 000 | 4 421 000 | 5 331 000 | 0 |
| 20. | Beyləqan | 17 698 000 | 33 000 | 5 008 000 | 12 657 000 | 0 |
| 21. | Bərdə | 22 155 000 | 61 000 | 6 901 000 | 15 193 000 | 0 |
| 22. | Biləsuvar | 17 677 000 | 17 000 | 5 241 000 | 12 419 000 | 0 |
| 23. | Cəbrayıl | 2 881 000 | 16 000 | 3 548 000 | 0 | 683 000 |
| 24. | Cəlilabad | 15 640 000 | 35 000 | 6 384 000 | 9 221 000 | 0 |
| 25. | Daşkəsən | 7 315 000 | 1 000 | 3 974 000 | 3 340 000 | 0 |
| 26. | Füzuli | 15 246 000 | 17 000 | 7 165 000 | 8 064 000 | 0 |
| 27. | Gədəbəy | 10 501 000 | 41 000 | 7 625 000 | 2 835 000 | 0 |
| 28. | Goranboy | 13 009 000 | 20 000 | 7 072 000 | 5 917 000 | 0 |
| 29. | Göyçay | 20 025 000 | 16 000 | 5 637 000 | 14 372 000 | 0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 30. | Göygöl | 20 744 000 | 9 000 | 6 100 000 | 14 635 000 | 0 |
| 31. | Hacıqabul | 10 047 000 | 12 000 | 4 652 000 | 5 383 000 | 0 |
| 32. | Xaçmaz | 43 279 000 | 1 544 000 | 8 277 000 | 33 458 000 | 0 |
| 33. | Xızı | 5 866 000 | 5 000 | 3 295 000 | 2 566 000 | 0 |
| 34. | Xocalı | 1 153 000 | 3 000 | 2 144 000 | 0 | 994 000 |
| 35. | Xocavənd | 1 285 000 | 25 000 | 2 344 000 | 0 | 1 084 000 |
| 36. | İmişli | 44 010 000 | 1 711 000 | 5 847 000 | 36 452 000 | 0 |
| 37. | İsmayıllı | 16 422 000 | 10 000 | 6 565 000 | 9 847 000 | 0 |
| 38. | Kəlbəcər | 3 766 000 | 4 000 | 4 911 000 | 0 | 1 149 000 |
| 39. | Kürdəmir | 17 367 000 | 18 000 | 5 143 000 | 12 206 000 | 0 |
| 40. | Qax | 6 531 000 | 15 000 | 5 473 000 | 1 043 000 | 0 |
| 41. | Qazax | 22 759 000 | 15 000 | 5 812 000 | 16 932 000 | 0 |
| 42. | Qəbələ | 29 532 000 | 22 000 | 7 548 000 | 21 962 000 | 0 |
| 43. | Qobustan | 6 649 000 | 5 000 | 4 576 000 | 2 068 000 | 0 |
| 44. | Quba | 35 464 000 | 64 000 | 8 841 000 | 26 559 000 | 0 |
| 45. | Qubadlı | 7 105 000 | 4 000 | 4 279 000 | 2 822 000 | 0 |
| 46. | Qusar | 17 408 000 | 28 000 | 6 684 000 | 10 696 000 | 0 |
| 47. | Laçın | 6 700 000 | 75 000 | 5 913 000 | 712 000 | 0 |
| 48. | Lerik | 5 979 000 | 5 000 | 5 449 000 | 525 000 | 0 |
| 49. | Masallı | 17 757 000 | 35 000 | 8 230 000 | 9 492 000 | 0 |
| 50. | Neftçala | 11 915 000 | 28 000 | 5 292 000 | 6 595 000 | 0 |
| 51. | Oğuz | 4 606 000 | 30 000 | 3 981 000 | 595 000 | 0 |
| 52. | Saatlı | 15 716 000 | 8 000 | 5 991 000 | 9 717 000 | 0 |
| 53. | Sabirabad | 17 766 000 | 17 000 | 5 751 000 | 11 998 000 | 0 |
| 54. | Salyan | 18 121 000 | 26 000 | 6 962 000 | 11 133 000 | 0 |
| 55. | Samux | 9 708 000 | 16 000 | 5 318 000 | 4 374 000 | 0 |
| 56. | Siyəzən | 8 625 000 | 17 000 | 3 859 000 | 4 749 000 | 0 |
| 57. | Şabran | 10 906 000 | 21 000 | 4 453 000 | 6 432 000 | 0 |
| 58. | Şamaxı | 18 823 000 | 14 000 | 7 395 000 | 11 414 000 | 0 |
| 59. | Şəmkir | 29 919 000 | 50 000 | 9 416 000 | 20 453 000 | 0 |
| 60. | Şuşa | 4 121 000 | 2 000 | 1 902 000 | 2 217 000 | 0 |
| 61. | Tərtər | 12 404 000 | 17 000 | 6 978 000 | 5 409 000 | 0 |
| 62. | Tovuz | 30 043 000 | 2 022 000 | 7 136 000 | 20 885 000 | 0 |
| 63. | Ucar | 9 853 000 | 21 000 | 3 775 000 | 6 057 000 | 0 |
| 64. | Yardımlı | 4 253 000 | 8 000 | 5 622 000 | 0 | 1 377 000 |
| 65. | Zaqatala | 17 389 000 | 62 000 | 5 922 000 | 11 405 000 | 0 |
| 66. | Zəngilan | 3 056 000 | 3 000 | 2 685 000 | 368 000 | 0 |
| 67. | Zərdab | 6 571 000 | 11 000 | 5 605 000 | 955 000 | 0 |
| | **Cəmi** | **15 500 000 000** | **152 100 000** | **800 335 000** | **14 552 852 000** | **5 287 000** |

**Maddə 10.** Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

**Maddə 11.** Azərbaycan Respublikasının 2025-ci ildə dövlət daxili və xarici borclarına xidmətlərlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

| **Sıra №-si** | **Xərclərin istiqamətləri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 11.1. | Daxili dövlət borcu üzrə, cəmi o cümlədən: | 958 000 000,0 |
| | faiz ödənişləri | 821 200 000,0 |
| 11.2. | Xarici dövlət borcu üzrə, cəmi o cümlədən: | 1 441 640 200,0 |
| | faiz ödənişləri | 479 278 800,0 |

**Maddə 12.** Azərbaycan Respublikasının 2025-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 2 000 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 3 500 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 2 000 000,0 min manat məbləğində təsdiq edilsin.

**Maddə 13.** Dövlət büdcəsinin icrası prosesində “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin gəlirləri və kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmaların vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 14.** Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 051 600,0 min manat məbləğində təsdiq edilsin. Onun maliyyələşdirilməsi özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2025-ci il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının sərbəst qalığı, həmçinin məqsədli büdcə fondlarının vəsaitinin qalığı hesabına həmin fondların kəsirinin bağlanması daxilində) hesabına həyata keçirilsin.

**Maddə 15.** Azərbaycan Respublikasının 2025-ci il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 47 589 437,6 min manat müəyyən edilsin.

**Maddə 16.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri nəzərə alınmadan, Azərbaycan Respublikasının 2025-ci il icmal büdcəsi kəsirinin yuxarı həddinin məbləği 18 131 419,4 min manat məbləğində müəyyən edilsin.

**Maddə 17.** Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, “______ ”____________2024-cü il

№ _______